1_Layout 1 29.12.2020 11:00 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 24 (590)

30 dekabr 2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# İlham Əliyevin Qələbəsinin təntənəsi olan tarixi səfər

## “Qarabağ Azərbaycandır!” bəyanatının növbəti nidası Zəngilan və Qubadlıda qoyuldu

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu “İlham Əliyevin Qələbəsinin təntənəsi olan tarixi səfər” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**

İkinci Qarabağ müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi. 44 gün davam edən döyüşlər və qazanılan möhtəşəm Qələbə Prezident İlham Əliyevin yenilməz qətiyyətini, Ali Baş Komandanı olduğu ordumuzun qüdrətini və xalqımızın milli birliyini bütün dünyaya nümayiş etdirdi. 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımız artıq işğaldan azaddır, onların hamısı yenidən qurulacaq, əvvəlki şöhrətlərini bərpa edəcəklər. İşğaldan azad olunmuş bütün şəhər və kəndlərimizdə həyat canlanacaq.

### Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq

Azad olunmuş Cəbrayıl, Füzuli və Ağdam rayonlarından sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan və Qubadlı rayonlarına səfər etdilər. Əvvəlkilər kimi bu da sıradan bir səfər deyildi. Bu, İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi işğaldan azad etdiyi rayonlarımıza tarixi səfəri idi. Bu, “Qarabağ Azərbaycandır!” deyən və onu reallığa çevirən İlham Əliyevin qələbəsinin təntənəsi olan səfər, xalqımızın 44 günlük müharibədəki Zəfər sevincinin məntiqi davamı idi.

Bu səfər həm də dönüş idi, doğma torpaqlarımıza Böyük Qayıdışın rəmzi, gələcəyə baxışımızın ifadəsi idi. “Otuz il ərzində işğal altında olan torpaqlar öz sahiblərinə qayıdıb. Biz qayıtmışıq. Düşməni məhv edərək, zəfər çalaraq qayıtmışıq”, - deyən İlham Əliyev bir daha Qarabağdan torpaqlarımızın azadlığının, onun əsl sahiblərinin artıq qayıtdığının müjdəsini verdi bütün dünyaya.

İlham Əliyev bu dəfə Azərbaycan bayrağını Qubadlıda və Zəngilanda ucaltdı. Müzəffər Ali Baş Komandan bir daha bütün dünyaya göstərdi ki, işğaldan azad olunmuş bu torpaqlar Azərbaycan dövlətinin ərazisidir. Beləliklə, “Qarabağ Azərbaycandır!” bəyanatının növbəti nidası Zəngilan və Qubadlıda qoyuldu.



### Biz işğalçı düşmənlə yox, həm də vəhşilərlə üz-üzə qalmışdıq

Cəbrayıldan Zəngilan və Qubadlıya doğru uzanan yollarda Mehriban Əliyevanın etdiyi çəkilişlər bir daha məlum həqiqətləri bütün dünyaya nümayiş etdirdi. Bəli, biz işğalçı, terrorçu düşmənlə yox, həm də vandallarla, vəhşilərlə üz-üzə qalmışdıq. Tarixdən də bəllidir ki, bütün müharibələr zamanı yaşayış məskənlərini, maddi mədəniyyət nümunələrini dağıdanlar yalnız və yalnız mədəni inkişafdan geri qalan, yırtıcı şüur və təfəkkürə malik barbarlar olublar.

30 ilə yaxın idi torpaqlarımızı işğal altında saxlayan qüvvələr isə müasir dövrün barbarlarıdır. Çünki işğal olunmuş kənd və şəhərlərimizin xarabalıqlara çevrilməsi, yağmalanması, təbiətimizə qəsd edilməsi barbarlıqdan, vəhşilikdən başqa bir şey deyil. Düşmən xalqımıza məxsus maddi mədəniyyət abidələrini dağıdıb, məscidlərimizi təhqir edib. Bu gün Ermənistanın müdafiəsinə qalxan siyasi mərkəzlər bunları görməzliyə vurmaqla isə elə öz barbarlıqlarını nümayiş etdirirlər.

“Cəbrayıldan başlayaraq Qubadlıya qədər, Zəngilana qədər azad edilmiş torpaqlardan gəlmişəm. Bir dənə də salamat bina yoxdur. Bütün binalar sökülüb, dağıdılıb, kəndlərimizin adları dəyişdirilib, eybəcər adlar verilib, məscidimiz bax, bu günə düşüb. Cavabını verəcək Ermənistan, cavabını verəcək! Veribdir, qovmuşuq torpaqlarımızdan, məhv etmişik onları, onların ordusunu. Əminəm ki, bu görüntülərdən sonra bizə irad tutmağa çalışan “beynəlxalq məmurlar” öz dillərini qarınlarına qoyacaqlar. Biz isə bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq”, - deyə Prezident İlham Əliyev Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidlə tanışlıqdan sonra bildirdi.

Kənd və şəhərlərimizin dağıdılması hər birimizi göynədir. İşğaldan azad edilmiş bütün ərazilərimiz erməni vandallığının qurbanı olub, şəhər və kəndlərimiz viran qoyulub, xalqımıza və dövlətimizə qarşı cinayət törədilib. Prezident İlham Əliyevin qeyd etdiyi dağıdılmış yurd yerlərimizin qiymətləndirilməsi aparılacaq. Bu işə beynəlxalq qurumlar və xarici ekspertlər də cəlb ediləcək. 30 il ərzində bizə vurulmuş ziyan hesablanacaq və bundan sonra beynəlxalq məhkəmələrdə Ermənistana qarşı təzminat davası açılacaq.

### Zəngilan və Qubadlı qələbələri müharibənin gedişinə təsir edən hadisələr oldu

Qeyd edək ki, həm Zəngilan, həm də Qubadlı döyüş yolu ilə işğaldan azad edildi. Döyüşlər zamanı ordumuzun rəşadəti ilə işğalçı qoşunların bu rayonlarda məhv edilməsi və qovulub çıxarılması 44 günlük müharibənin gedişinə təsir edən mühüm hadisələr oldu. Prezident İlham Əliyev tərəfindən bu rayonların azad olunmasının elan edilməsi bütün xalqımız tərəfindən böyük coşqu ilə qarşılandı.

Zəngilan şəhərinin oktyabrın 20-də azad olunmasından sonra ordumuzun növbəti hədəfi Qubadlı idi. Qubadlının azad edilməsi isə strateji baxımdan çox əhəmiyyətli idi. Buna görə də işğalçı qoşunlar Qubadlıdakı müdafiə mövqelərini çox möhkəmləndirmişdilər. Lakin Azərbaycan Ordusunun qarşısında onların heç biri duruş gətirə bilmədi və oktyabrın 25-də Qubadlı işğaldan azad olundu. Həm də Qubadlı əməliyyatı zamanı Azərbaycan Ordusu Ermənistan ərazisindən atəşə tutulurdu. “Ona görə Qubadlı əməliyyatı xüsusi peşəkarlıq və fədakarlıq tələb edirdi. Azərbaycan Ordusu da bu peşəkarlığı, fədakarlığı göstərib. İlk növbədə, şəhərə hakim olan yüksəkliklər götürüldü, ətrafda yerləşən kəndlər, o cümlədən Xanlıq qəsəbəsi, Padar, Sarıyataq, Mahmudlu kəndləri götürüldü və strateji yüksəkliklər ələ keçirildi”, - deyən Prezident İlham Əliyev ordumuzun Qubadlı əməliyyatı zamanı peşəkarlığını yüksək qiymətləndirib.

Qubadlı rayonunun azad edilməsi ordumuzun bu istiqamətdəki hərbi əməliyyatlar zamanı strateji üstünlüyünü təmin etdi. Bundan sonra Laçın rayonunun Güləbird, Səfiyan və Türklər kəndlərinin azad olunması, eyni zamanda strateji yüksəkliklərin ələ keçirilməsi Laçın dəhlizinin ordumuzun artıq atəş altına düşməsinə yol açdı. Bu strateji uğur ordumuzun digər istiqamətdən Şuşaya doğru irəliləməsinə böyük təkan verdi.

**Zəngilan və Qubadlı tarixi Azərbaycan əraziləri, qədim yurd yerlərimizdir. Bu torpaqların hər qarışında, hər addımında zəngin və şərəfli tariximizin, milli-mədəni və mənəvi dəyərlərimizin izi var. Tökülən şəhid qanları ilə bu torpaqlar daha da müqəddəsləşdi. Tezliklə bu rayonların hər birində həyat yenidən canlanacaq və İlham Əliyevin yüksəliş siyasətinin təntənəsi olan Qubadlıda, Zəngilanda və bütün Qarabağda yaşanacaq.**

# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” kəlamı isə dillər əzbərinə çevrilib.

Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azər-



baycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib. Dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olan Ulu Öndərimiz xarici dövlətlərə səfərləri zamanı proqramının zənginliyinə, iş gününün gərginliyinə baxmayaraq, həmin ölkələrdə yaşayan, fəaliyyət göstərən həmvətənlərimizlə görüşlərə də mütləq vaxt ayırır, onların problem və qayğıları ilə yaxından maraqlanır, daha sıx təşkilatlanmaları üçün dəyərli tövsiyələr verirdi.

Yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının “Dünya azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında” 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilib, Azərbaycan Prezidenti İlham Əliyevin Türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşüb.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir. Dünya Azərbaycanlılarının I Qurultayında yaradılmış Əlaqələndirmə Şurasının 2008-ci il dekabrın 18-də Bakıda keçirilmiş iclası, toplantıda “Dünya Azərbaycanlılarının Xartiyası”nın qəbulu birlik və mütəşəkkilliyinin artması, tarixi Vətənlə əlaqələrinin möhkəmlənməsi, diaspor potensialının möhkəm amilə çevrilməsini göstərməklə yanaşı, müstəqil Azərbaycanın bütün dünya azərbaycanlıları üçün cazibə mərkəzi olduğunu da bir daha təsdiqləyib.

Bu ilin 27 sentyabr – 9 noyabr tarixlərində 44 gün davam edən Vətən müharibəsində xalqımız Müzəffər Ali Baş Komandanımızın ətrafında yumruq kimi birləşdi, torpaqlarımızın azadlığı uğrunda mübarizədə milli həmrəyliyin ən gözəl nümunəsini yaratdı. Əslində, bu birliyin müəllifi də elə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin özüdür.

Həmrəylik Günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir.

Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirirlər.

**Həmrəylik Gününüz mübarək!**

2_Layout 1 29.12.2020 12:08 Page 1



# Şanlı döyüş yolu keçən xüsusi təyinatlılar

Azərbaycanın ərazi bütövlüyünün bərpası ölkə vətəndaşlarının illərlə ürəyində yaşatdığı, uğrunda mübarizə apardığı ən müqəddəs arzu olub. Bu mübarizə yolunda Daxili Qoşunların hərbi qulluqçularının qəhrəmanlıq nümunələri heç vaxt unudulmayacaq.




Vətənin müdafiəsi hər birimizin müqəddəs borcudur. Fəxrlə demək olar ki, 17072 saylı hərbi hissədə mayor Zaur Rəhimovun komandiri olduğu xüsusi təyinatlı dəstə cənab Ali Baş Komandanın respublikamızın ərazi bütövlüyünün bərpası uğrunda qarşıya qoyduğu bütün tapşırıqları şərəflə yerinə yetirib.



44 günlük Vətən müharibəsində hərbi hissənin xüsusi təyinatlıları, sözün əsl mənasında, düşmənin sinəsinə dağ çəkib.

Mayor Z.Rəhimov xüsusi təyinatlıların Vətən müharibəsindəki iştirakından söz açaraq dedi: "Şəhid olmağı özünə şərəf bilən hər kəsin daxilində yüksək vətənpərvərlik, cəsurluq, müsbət əxlaq, əqidə vardır. 44 günlük Vətən müharibəsində torpaqlarımızın azad olunması naminə ölümü gözə alan 11 nəfər xüsusi təyinatlımız bu müqəddəs amal uğrunda şəhidlik zirvəsinə ucalıb".

Qorxu duymadan, ürəklərində böyük Vətən sevgisi ilə qəhrəmancasına döyüşüb şəhid olan gizir Vüqar Ələkbərov, baş çavuş Ruslan Qurbanov, çavuşlar Həsən Abdullayev, İbrahim Cəbrayıllı, Sabir Əbdürrəhmanlı, Asif Talıblı, Emil Fətəliyev, Cəlil Xeyrullayev, Cavad İbadov, Elsevər Piriyev, əsgər Elnur Bağırov sübut etdilər ki, bu xalqın qəhrəmanları minlərlədir.

Xidməti ezamiyyətim zamanı 17072 saylı hərbi hissədə də Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canını qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükutla yad edildi. Anım mərasimindən sonra Daxili Qoşunların Baş İdarəsində Şəxsi heyət üzrə İdarənin mənəvi-psixoloji hazırlıq şöbəsi rəisinin müavini polkovnik-leytenant Aydın Nağıyev və mən xüsusi təyinatlı dəstənin kazarmasında olduq, Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş hərbi hissənin qəhrəman hərbçilərinin əziz xatirəsini böyük ehtiramla yad etdik. Daha sonra dəstənin döyüşlərdə iştirak edən və yaralanmış hərbi qulluqçuları ilə həmsöhbət olduq, görüş zamanı onlar şərəfli döyüş xatirələrindən danışdılar.

Bu müharibədə xüsusi təyinatlılar düşmənin xeyli sayda canlı qüvvəsini məhv edib, çoxlu sayda zirehli texnikasını və şəxsi heyət, silah-sursat daşıyan avtomobilini sıradan çıxarıb, müdafiə postlarını, atəş nöqtələrini dağıdıb.

Vətən müharibəsində xüsusi təyinatlılardan 39 nəfər yaralanıb. Bu döyüşçülər müharibə zamanı yaralansalar da, döyüşü davam etdiriblər. Qeyd edim ki, mayor Z.Rəhimov, çavuşlar Əli Allahverdiyev, Samir Qarayev və baş əsgər Xəyal Abbasov 2 dəfə yaralanmalarına baxmayaraq, onlar yenilməz döyüş əzmi ilə sonacan vuruşublar.

Mayor Z.Rəhimov birinci dəfə sentyabr ayının 27-də Murovdağın Koroğlu postunda gedən şiddətli döyüşdə yaralanıb. O, minaatan mərmisinin partlaması nəticəsində boyun nahiyəsindən qəlpə yarası və kəllə-beyin travması alıb. Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Qospitalında müalicəsi vaxtı, sentyabr ayının 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan mayor Z.Rəhimov və digər yaralı hərbçilərlə görüşüblər. Zabitimiz 10 gün müalicə aldıqdan sonra təkrar döyüşlərə qatılıb.

Xüsusi təyinatlılar Murovdağda Ömər yüksəkliyinin və bir çox postun, Cəbrayıl şəhərinin, Xocavənd rayonunun Hadrut qəsəbəsinin və onlarla kəndin, Füzuli rayonunun bir sıra kəndlərinin, Şuşa şəhərinin, Xocalı rayonunun Dəmirçilər, Çanaqçı kəndlərinin işğaldan azad edilməsində şücaət göstəriblər.

Dəstə komandiri bildirdi ki, Vətən müharibəsində iştirak edən dəstənin bütün şəxsi heyəti qəhrəmanlıq göstərib, dəstəyə verilən şərti adı doğruldaraq pələng kimi döyüşüb. Düşməndən fərqli olaraq, xüsusi təyinatlılar döyüş meydanındaca yaralı yoldaşlarına ilkin tibbi yardım göstərib, şəhid və yaralıların təxliyə olunmasına köməklik ediblər.

Mayor Z.Rəhimov Vətən müharibəsində xüsusi təyinatlıların göstərdiyi şücaətin onlarla keçirilən təlim və məşqlərin bariz nəticəsi olduğunu bildirdi. Onun sözlərinə görə, yüksək döyüş hazırlığını qoruyub saxlamaq məqsədilə şəxsi heyət mütəmadi olaraq real döyüş şəraitinə uyğunlaşdırılmış təlimlərə cəlb olunur. Məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılmasına önəm verilir.

Xüsusi təyinatlı bölmənin fəaliyyətinin spesifikliyi barədə danışan dəstə komandirinin müavini – qərargah rəisi mayor Rəşad Məmmədov vurğuladı ki, çətin iqlim şəraitində təlimlərin təşkil olunub keçirilməsi xüsusilə diqqət mərkəzində saxlanılır: "Təsdiq olunmuş müvafiq plana əsasən, məşğələlər bölmənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur. Məşğələlər şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsinə, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsinə, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsinə, yüksək icraçılığa və sayıqlığın artırılmasına, eləcə də fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın və şücaətin, qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir".



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, mayor Zaur Rəhimov başda olmaqla, dəstənin Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarında hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümunəsi göstərmiş hərbi qulluqçuları (o cümlədən, şəhid olan 11 nəfər hərbi qulluqçu ölümündən sonra) müxtəlif orden və medallarla təltif ediliblər. Bundan əlavə, mayor Z.Rəhimov və çavuş Ə.Hüseynli dekabr ayının 10-da Azadlıq meydanında keçirilən Zəfər paradında iştirak ediblər.

Daxili Qoşunlar Birinci və İkinci Qarabağ müharibəsində torpaqlarımızın bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə qeyrətli və mərd hərbi qulluqçularını qurban verib. Onların döyüş yolu, göstərdikləri şücaət və vətənpərvərlik hər zaman gənc nəsil üçün nümunə olacaqdır.

**"Pələng"lərin göstərdikləri mərdlik hərb tariximizə qızıl hərflərlə yazılıb. Onlar Vətənə ehtiramlarını, dövlətə sədaqətlərini canları və qanları bahasına sübut ediblər.**

**kapitan Sadıq Rəfiyev**

# Ön cəbhənin alınmaz səngəri: ARXA CƏBHƏ

Torpaqlarımızı işğaldan azad etmək üçün apardığımız Vətən savaşı hərb tarixinə ən çevik və mobil müharibə kimi düşdü. Bu gün də modern və güclü orduya malik dövlətlərin hərbi analitikləri Qarabağ döyüşlərində tətbiq etdiyimiz döyüş taktikasını elmi əsaslarla öyrənməyə çalışırlar. Əksəriyyəti müasir hərbi texnikalarımızın, hazırlıqlı və peşəkar hərbçilərimizin sayəsində buna nail olduğumuzu vurğulayır.

**Qalibiyyətimizin səbəbi hərbi gücümüz, qüdrətli ordumuzdur, yeni analitiklərin gəldiyi qənaət doğrudur. Ancaq onlar bir nüansı-millətin döyüşkənlik ruhunu nəzərdən qaçırırlar.**

Yerevan.today saytına açıqlama verən düşmən əsgərindən sitat: "...Onlar üstümüzə gələndə pulemyotla vururduq, yıxılırdılar, sonra yenə qalxıb üstümüzə şığıyırdılar... Şuşa döyüşləri daha dəhşətliydi. Biz onları yoldan gözləyirdik, amma bir də ayıldıq ki, onlar artıq içimizə giriblər, həm də yalın əllə. Çox dəhşətli bir döyüş idi. Erməni əsgərlərini dişləriylə parçalayırdılar. Xankəndinə gətirilən meyitlərin əksəriyyətinin boyunlarındakı şah damarları dişlə qoparılmışdı...".

Xocalı faciəsinin şahidi olan və ya onu televiziya ekranlarından izləyən oğullar düşməni dişləriylə belə didməyə and içmişdilər və bu andlarına da Vətən müharibəsində sadiq qaldılar. Düşmən bizə yaşatdıqlarını unutduğumuzu zənn edirdi, ancaq döyüşlər göstərdi ki, biz unutmamışıq, əksinə, illərdir ki, qisas hissi ilə alışıb-yanmışıq.

**Biz həm də ona görə qələbə qazandıq ki, döyüşən əsgərin, zabitin gözü arxada qalmadı. Ata-anasından, ailəsindən, balasından nigaran deyildi. Çünki onların arxasında sosial və iqtisadi baxımdan regionun ən güclü dövləti dayanırdı. Dövlətin bütün strukturları ön cəbhə üçün səfərbər olsalar da, arxa cəbhə daha etibarlı qorunur, baş verə biləcək bütün neqativlərin qarşısının alınması üçün görüləcək tədbirlər an məsələsi idi.**

### Qazanılan etimad və etibar həm də məsuliyyət yaradır

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantı təyin edildi.



Daxili İşlər Nazirliyinə mühüm səlahiyyətlərin verilməsi həm də onun üzərinə böyük məsuliyyət qoyurdu. Çeviklik, qərarvermə bacarığı və baş verənlərə vaxt itirmədən dəqiq reaksiya, eləcə də ön cəbhə ilə arxa cəbhə arasındakı əlaqənin mobil şəkildə qurulması götürülən öhdəliyin peşəkarcasına yerinə yetirilməsinin bariz nümunəsi idi.

Vaxtilə igid oğullarımızla birlikdə eyni səngərdə döyüşən Azərbaycan Polisi Vətən savaşında da onları tək qoymadı. Bütün varlığı ilə Qələbəyə töhfəsini verməyə çalışdı. Cinayətkarlıqla qətiyyətli mübarizə bir an belə səngimədi, strateji və digər dövlət obyektlərinin qorunması peşəkarlıqla yerinə yetirildi. Vətəndaş-polis münasibətlərinin həmrəylik ab-havasına köklənməsi sosial şəbəkələrin manşetinə çevrildi.

Vətən savaşına qatılan oğulların sırasında polis övladları da vardı. Onlar atalarının yarım qalmış işini davam etdirmək, işğaldan azad olunmuş torpaqlara bayraq sancmaq üçün ölümlərdən sıyrılıb düşmənə qan uddurdular.

Dəmir nizam-intizama riayət olunması, hər iki cəbhədə fədakarlıq və dövlətçilik mövqeyi cəmiyyətin Azərbaycan Polisinə olan rəğbətini daha da artırdı. Daxili işlər orqanlarının əməkdaşları Azərbaycan Ordusunun yenilməz əsgər və zabitləri kimi, hər iki cəbhənin qəhrəmanı olaraq xalqımızın könlündə taxt qurdular.

Ordumuz Vətən müharibəsinin ilk günlərində düşmənin hədəfinə çevrilən Tərtər və Xocalı Rayon Polis şöbələrinin, eləcə də cəbhədən xeyli aralıda olan yaşayış məntəqələrimizin, ballistik, fosforlu raketlərlə atəşə tutulan Gəncənin, Bərdənin, Tərtərin, Ağcabədinin, bombardmanlar nəticəsində şəhid olanların heyfini düşməndən aldı. Döyüşlərdə Ermənistan ordusunun yüzlərlə texnikası yararsız hala gətirildi, onlarla tank, top və digər silahlar hərbi qənimət kimi götürüldü. Zəfər paradında biz onları gördük və qürur hissi keçirdik.

### DİN Daxili Qoşunlarının hərbi qulluqçuları tarix yazdı

Qoşunlar özünün ən müqəddəs missiyasını Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda sentyabrın 27-də başlayan Vətən müharibəsində də layiqincə yerinə yetirdi. Müharibənin ən qaynar nöqtələrində üzərinə düşən görəvi yerinə yetirmək, işğal altındakı torpaqlarımızı azad etmək üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri və qanunvericilkdə nəzərdə tutulmuş digər silahlı birləşmələrlə Daxili Qoşunların şəxsi heyəti Ali Baş Komandanın rəhbərliyi ilə həyata keçirilən zəfər yürüşümüzdə, müqəddəs haqq savaşımızda döyüş salnaməmizə adını qızıl hərflərlə yazdırdı.



Vətən savaşında ölümün gözünə dik baxaraq canlarını fəda edən igid oğullarımızın, eləcə də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 65 hərbi qulluqçusunun xatirəsi unudulmayacaq, daim əziz tutulacaqdır.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə döyüş tapşırığını uğurla yerinə yetirərək Vətən savaşında igidlik və şücaət göstərən, şəhidlik zirvəsinə ucalan hərbi qulluqçular orden və medallarla təltif olundular. DİN Daxili Qoşunlarının xidməti vəzifəsini icra edən bir neçə əməkdaşı, o cümlədən şəhid olmuş 65 hərbi qulluqçusu da təltif olunanlar sırasındadır.

### Güclü və böyük Azərbaycana xidmətdən qürur duyuruq

Ulu Öndər Azərbaycan Polisinin yaranmasının 84-cü ildönümündə deyirdi: "Daxili İşlər Nazirliyi, polis Azərbaycan dövlətçiliyinin keşiyində durub, bundan sonra da duracaqdır. Biz daxili ictimai-siyasi sabitliyi təmin etmişik və siz üzərinizə düşən vəzifələri bundan sonra da yerinə yetirməlisiniz. Mən Azərbaycanın Prezidenti kimi, Ali Baş Komandan kimi sizə etibar edirəm, sizə inanıram, sizə arxalanıram. Bu güc ilə də və bu qüvvə ilə də biz müstəqil Azərbaycanı günü-gündən inkişaf etdirəcəyik və gələcək nəsillərə daha da gözəl Azərbaycan bəxş edəcəyik"...

Müstəqilliyimizi əbədi və dönməz etmək üçün asayişin keşiyində ayıq-sayıq dayanan, cinayətkarlıqla qətiyyətli mübarizə aparan Azərbaycan Polisinə inamını Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev isə belə ifadə edir: "Polisə olan hörmət dövlətə olan hörmətdir. Polis əməkdaşları qanunun keşiyində dayanırlar. Polis əməkdaşları cinayətkarlığa qarşı mübarizə aparırlar. Onlar öz həyatlarını risk altına qoyurlar və vətəndaşlar bunu unutmamalıdırlar. Yəni, cəmiyyətin, ölkəmizin rahat, təhlükəsizlik şəraitində yaşamasını polis orqanları təmin edirlər".

Bu gün soyuğa, qara, yağışa baxmayaraq, işğaldan azad olunmuş torpaqlarda Azərbaycan Əsgəri ilə birlikdə Azərbaycan Polisi də keşik çəkir. "Bayraq sancmağa bir inzibati binanın belə qalmadığı, düşmənin xarabazarlığa çevirdiyi rayonlarda polis xidmətini necə qurur" - deyə sosial şəbəkələrdən bizə sual ünvanlayan vətəndaşlarımıza, igid oğullarımızı düşünənlərə təkcə bunları demək keçir könlümüzdən: Hər birimizin istəyi, nə yolla olursa-olsun, o torpaqların alınması idi. Biz dəmir yumruğumuzun gücünə torpaqlarımızı işğaldan azad edib, düşmənə ömür boyu unuda bilməyəcəyi məğlubiyyət acısı yaşatdıq. İşğaldan azad olunan torpaqlarda xidmətə gəlincə, Azərbaycan Polisi, Azərbaycan Əsgəri çadırda, soyuq səngərdə də olsa belə xidmətini təşkil edəcək, üzərinə düşən görəvi layiqincə yerinə yetirəcəkdir.

**Hafiz Təmirov,**
**polis polkovnik-leytenantı**

3_Layout 1 29.12.2020 12:32 Page 1



Şəhidlərimiz

# "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülmüş şəhid zabitimiz

**Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin, hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə "Vətən Müharibəsi Qəhrəmanı" adı almış Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının 4 nəfər hərbi qulluqçusundan biri də ölümündən sonra bu fəxri ada layiq görülmüş mayor Qaflanov Şixamir Oruc oğludur.**

**Ölkə başçısının, həmçinin, 15 dekabr 2020-ci il tarixli və 22 dekabr 2020-ci il tarixli sərəncamları ilə mayor Şixamir Qaflanov (ölümündən sonra) müvafiq olaraq "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.**



Mayor Şixamir Qaflanov 1986-cı il dekabrın 7-də Zaqatala rayonunun Dombabinə kəndində (indiki Üçüncü Tala kəndi) anadan olub. Oruc dayının və Mominət ananın böyüdüb boya-başa çatdırdığı və tərbiyə etdiyi 4 övladdan (Asif, Vasif, Qurban və Şixamir) biri, eyni zamanda, ailənin sonbeşiyi və sevimlisi idi Şixamir...

Orta təhsilini şəhid Abdurahman Qurbanov adına Üçüncü Tala kənd orta məktəbində alıb. Müddətli həqiqi hərbi xidmətini 2005-2006-cı illərdə Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində keçib. Hərbi xidmətə olan böyük həvəsi sayəsində Şixamir tərxis olunduqdan bir müddət sonra – 2007-ci ilin aprelindən yenidən sıralarımıza qayıdaraq, Daxili Qoşunların müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətənə olan borcunu şərəflə yerinə yetirməyə başlayıb. 2008-ci ilin avqust ayınadək 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində müxtəlif vəzifələrdə xidmət edib. Lakin hələ hərbi xidmətə yenicə başladığı dövrlərdə belə Şixamirin ən böyük arzusu zabit kimi Vətəninə xidmət etmək olub. Məhz bu arzu ilə 2008-ci ildə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbinə daxil olan silahdaşımız 2010-cu ildə bu hərbi təhsil ocağını müvəffəqiyyətlə bitirərək "leytenant" hərbi rütbəsi alıb. Zabit kimi ilk olaraq qoşunların 17074 saylı hərbi hissəsində fəaliyyətə başlayan Şixamir 2012-ci ilin oktyabr ayınadək burada müxtəlif bölmələrin tərkibində taqım və qrup komandiri vəzifələrində xidmət etməklə, yüksək çalışqanlığı, bilik və bacarığı sayəsində qısa müddətdə hərbi hissə komandanlığının etimadını qazanmağa müvəffəq olub. Mayor Ş.Qaflanov, həmçinin, xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçu kimi "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli, "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli, eləcə də "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalları ilə təltif edilib.

Ş.Qaflanov xidmət etdiyi dövrdə iki dəfə - 2012-ci ilin oktyabr ayından dekabr ayınadək və 2019-cu ilin fevral ayından iyun ayınadək qardaş Türkiyə Respublikası Jandarm Baş Komandanlığının Jandarm Komando Məktəbləri və Təlim Mərkəzi Komandanlığında müvafiq olaraq "Zabit komando təməl kursu" və "Jandarma komando ixtisas kursu"nda təhsilini davam etdirib.

Kursları müvəffəqiyyətlə bitirən Ş.Qaflanovun bilik və bacarığı nəzərə alınaraq, əvvəlcə 16077 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini və dəstə komandirinin müavini-qərargah rəisi, 2020-ci ilin fevral ayından etibarən isə 16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri vəzifəsində xidmət edib.

Vətən qarşısında müqəddəs borcunu şərəflə yerinə yetirən bir zabit və hər bir qeyrətli Azərbaycan vətəndaşı kimi Şixamirin ən böyük arzusu məhz işğal altındakı torpaqlarımızın azadlığı və ölkəmizin ərazi bütövlüyünün bərpa olunması idi.

Qəhrəman zabitimizin qardaşı, vaxtilə Daxili Qoşunların sıralarında xidmət etmiş Qurban Qaflanov (hazırda DİN-in Əlahiddə Çevik Polis Alayında xüsusi vasitələr xidməti rəisi, polis mayoru) məhz bu səbəbdən Şixamirin Ali Baş Komandanın torpaqlarımızın işğaldan azad edilməsi uğrunda verdiyi döyüş əmrini böyük sevinc və ruh yüksəkliyi ilə qarşıladığını deyir: "Şixamir mənim üçün təkcə qardaş deyil, həm də bir dost, bir sirdaş idi. Hər bir dərdini mənimlə bölüşərdi. Cəbhəyə yollananda da evdəkilər nigaran olmasın deyə bu barədə yalnız mənə bildirmişdi...

Mehriban, şən, eyni zamanda, xidmətə münasibətdə olduqca məsuliyyətli və ciddi, həyata maraqlı baxışı olan bir insan idi. Hərəkət etməyi çox sevirdi. Yatmaqla demək olar ki, heç arası yox idi. Sanki çox yaşamayacağını bilirdi. Onun bir sözü var idi həmişə: "O dünyada çox yatacağıq" – deyərdi. Ona görə də gecə saat 3-də də olsa qaldırıb desəydin ki, Şixamir gəl gedək gəzməyə, nə bilim, balıq tutmağa və sair, böyük həvəslə gedərdi...

Tale elə gətirdi ki, 2008-2010-cu illərdə Daxili Qoşunların zabit hazırlayan Orta İxtisas Hərbi Məktəbini də Şixamirlə birgə bitirdik. Eyni gündə "leytenant" hərbi rütbəsi almışdıq. Nə deyim... Olduqca vətənpərvər, mərd, dostcanlı bir insan idi. Cəbhəyə də böyük inam və həvəslə getmişdi...".

Bəli, o, hərbi anda sadiq qalan vətənpərvər, mərd bir hərbi qulluqçu kimi ən böyük arzusunun çin olması üçün qanından və canından keçməyə hər zaman hazır idi və keçdi də...

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsinin ilk günlərindən mayor Ş.Qaflanov komandiri olduğu və qoşunların "Bəbir" şərti adı verilmiş xüsusi təyinatlı dəstəsinin mərd hərbi qulluqçuları ilə birgə cəbhənin müxtəlif istiqamətlərində erməni terrorçularının başına od-alov yağdırmışdı.

**19 oktyabr 2020-ci il...** Füzuli-Xocavənd istiqamətində gedən döyüşlərdən biri Şixamirin son döyüşü oldu. Baş vermiş bu qanlı döyüşdə tabeliyində olan cəsur silahdaşları ilə birgə ermənilərin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edərək, mühüm strateji mövqelərini ələ keçirir. Lakin acı məğlubiyyətlə barışmaq istəməyən düşmən digər yüksəkliklərdə yerləşən postlarından itirdikləri mövqeləri snayperlərdən, iriçaplı silahlardan və minaatanlardan güclü atəşə tutur. Şiddətli döyüş gedişində düşmən snayperinin açdığı atəş nəticəsində baş nahiyəsindən ağır yaralanan mayor Şixamir Qaflanov gözlərini yumaraq əbədi ölümsüzlüyə - şəhidlik zirvəsinə yüksəlir...

Bu döyüşdə qəhrəman komandirlə birgə onun tabeliyində xidmət edən Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin digər 3 nəfər cəsur hərbi qulluqçusu – baş çavuş Mehdiyev Surxay Zülfi oğlu, baş çavuş Məmmədov Sahib Yaşar oğlu və çavuş Ələsgərzadə Sənan Muxtar oğlu da son damla qanlarınadək vuruşaraq şəhid oldular.



Mayor Ş.Qaflanov 2020-ci il oktyabrın 24-də Zaqatala rayonunun Üçüncü Tala kəndinin qəbiristanlığında dəfn olunub. Evli idi. Mədinə adlı bir qız övladı xalqımıza əmanətdir.

Qeyd edək ki, Şixamirin böyük qardaşı Asif Qaflanov Birinci Qarabağ müharibəsi qazisidir. Xocavənd istiqamətində gedən döyüşlərdə yaralanan Asif ikinci qrup müharibə əlilidir. Onun və digər ailə üzvlərinin xatirələri əsasında "ARB" və "ATV" televiziya kanallarının xəbər proqramlarında yayımlanan ""Rembo" ləqəbli şəhid mayor", eləcə də ""Əfsanəvi Rembo"nun qəhrəmanlığı" adlı qısametrajlı süjetlərdə igid zabitimizin gənc nəslə nümunə olan həyat və hərbi xidmət yolu barədə məlumatlar izləyicilərə təqdim edilib.

16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini, "Qarabağ" ordeni və "Şücaətə görə" medalı ilə təltif edilmiş mayor Elşən Məmmədov (Vətən müharibəsi zamanı Cəbrayıl və Şuşa istiqamətlərində gedən döyüşlərdə iki dəfə yaralanıb) vaxtilə birgə xidmət etdiyi dəstə komandiri haqqında ancaq xoş sözlər danışa biləcəyini deyir: "Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq İkinci Qarabağ müharibəsində dəstəmizin 6 nəfər hərbi qulluqçusu şəhid olub. Onlardan biri də dəstə komandirimiz mayor Ş.Qaflanovdur.

Mayor Ş.Qaflanov komandir kimi dəstəmizə bu ilin fevralında gəlmişdi. Təlim sevən komandir olduğu üçün gəldiyi gündən bütün şəxsi heyətin hörmətini qazanmağa müvəffəq olmuşdu. O xoşlamırdı ki, komandiri olduğu dəstənin nəticəsi aşağı olsun. Bu baxımdan bir komandir kimi çox ciddi və tələbkar idi. Bəlkə də fikirləşirdi ki, belə bir gün gələcək. Biz müharibəyə cəlb oluna bilərik. Ona görə də təlimlərə xüsusi fikir verərdi.

Bir insan kimi də çox gözəl xasiyyəti vardı. Tabeliyində olan elə bir hərbi qulluqçu olmazdı ki, hər hansı bir problemi ilə əlaqədar müraciət etsin, lakin mayor Ş.Qaflanov ona biganə baxsın. Hər zaman şəxsi heyətin qayğısına qalardı...

Biz Müdafiə Nazirliyinin hərbi hissəsi ilə birgə ayrı-ayrı dəstələrin tərkibində vuruşurduq. Sonuncu dəfə onunla Beyləqanda olarkən telefonla danışmışdıq. "İstiqamətiniz haradır" - deyə mənə sual verdi. Mən isə ona: "istiqamətimiz Füzulidir, komandir" - dedim. O da mənə: "Elə bizim də istiqamətimiz oradır. Allah hamımıza kömək olsun" - dedi. Ondan sonra nə özünü



gördüm, nə də səsini eşitdim. Şəhid olma xəbərini eşidəndə inanmadım. Elə indi də inanmağım gəlmir... Allah ona və bütün şəhidlərimizə rəhmət eləsin!".

Sonda onu qeyd edə bilərik ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz düşməni məhv edərək torpaqlarımızdan qovub çıxardı. Dəmir yumruqla başı əzilən düşmən qarşımızda diz çökdü və kapitulyasiya aktını imzalamağa məcbur oldu. Vətən müharibəsində qazanılan Böyük Qələbə, təbii ki, Şixamir kimi qəhrəman şəhid və qazilərimizin canı-qanı bahasına əldə edilib. Şəhid silahdaşlarımızın həyat və döyüş yolu hər birimiz üçün örnəkdir.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

# Vətən müharibəsinin od-alovundan keçənlər - yaralı hərbi qulluqçularımız



2020-ci ilin 27 sentyabr - 9 noyabr tarixlərində müzəffər Silahlı Qüvvələrimizin Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda erməni işğalçılarına qarşı apardığı döyüş əməliyyatları ölkəmizin böyük hərbi zəfəri ilə başa çataraq, bizə illərlə həsrətini çəkdiyimiz doğma yurdlarımızda müqəddəs üçrəngli bayrağımızın qaldırılması qürurunu yaşatdı. Artıq



təqvimdə bizim xalq olaraq öz Zəfər günümüz var. Bu şanlı zəfər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrik və uzaqgörən siyasəti, eləcə də igid oğullarımızın canı və qanı bahasına əldə olunub.

Açıqlanan rəsmi məlumatlara görə, rəşadətli Silahlı Qüvvələrimizin 2823 nəfər hərbi qulluqçusu Vətən müharibəsində şəhidlik zirvəsinə ucalıb. Şəhidlərin siyahısında 65 nəfər Daxili Qoşunların hərbi qulluqçusudur. Döyüşlər zamanı, ümumilikdə, 30 nəfərdən çox hərbi qulluqçu itkin düşüb.

Torpaqlarımızı düşmən tapdağından azad edərkən odlu silahdan yaralanan, kontuziya alan, sağlamlığını itirən hərbi qulluqçuların da sayı az deyil. Onlar hazırda hərbi qospitallar və xəstəxanalarda müalicə olunurlar. Sözügedən hərbi qulluqçuların sağlamlığının bərpası məsələsi dövlətimiz tərəfindən xüsusi diqqət mərkəzində saxlanılır. Bu gün şəhid ailələrinə, əlillərə, yaralanmış zabit, gizir, çavuş və əsgərlərə, bütün Vətən müharibəsi iştirakçılarına öz mənəvi qayğımızı əsirgəməməliyik. Vətən müdafiəçiləri və onların ailələrinə mənəvi-psixoloji dəstək milli birliyimizin möhkəmləndirilməsi, döyüş ruhumuzun yüksəldilməsi, cəmiyyətdə vətənpərvərlik əqidəsinin daha da dərinləşməsi baxımından mühüm amildir.

Daxili Qoşunların hərbi qospitalında müalicə olunan yaralı hərbi qulluqçularımızla bir neçə gün ərzində görüşdük, onların döyüş yolu barədə ətraflı söhbətlər etdik. Müharibənin hər üzünü görmüş veteran kimi mən (Birinci Qarabağ müharibəsində iştirak etmişəm) onların ön cəbhədə daxilən keçirdikləri hissləri, qəlblərindəki ağrı-acıları, bununla yanaşı, hər birinə döyüş zəfərinin bəxş etdiyi fəxarət ovqatını çox həssascasına anlayıram. Ürəkləri Vətən sevgisi ilə döyünən bu hərbi qulluqçularımız 44 gün davam edən ağır döyüşlərdə qalib olmağımız üçün təqdirəlayiq fədakarlıq göstəriblər. Bədənlərini dəlib keçən güllələr və mərmi qəlpələri onların iradəsini, qətiyyətini büdrətməyib. Ölümdən və mənfur düşməndən qorxmadan, öz güclərini toparlayaraq, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Xocavənd, Şuşa, Murovdağ və digər istiqamətlərdə döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetiriblər. Bu oğullar ata-babalarının qeyrət məktəbinin layiqli yetirmələridirlər. "Vətən torpağının düşmən tapdağındakı hər qarışı can verilərək və qan tökülərək geri alınır" hikmətli kəlamının ruhlandırıcı cazibəsi müharibə gerçəkliyi ilə üz-üzə qaldıqları od-alovlu günlərdə onları tərk etməyib.

Döyüşlərdə həlak olan yoldaşlarının cəsurluq nümunələri, çətin məqamlar zamanı özünü büruzə verən müsbət keyfiyyətləri, ölümqabağı söylədikləri son sözlər qarşıdakı həyat boyu onların xatirələrində xüsusi yer tutacaq. Vətən müharibəsi haqqında şahidi olduqları və bizə danışdıqları hər bir epizod, olduqca maraqlı təfərrüatlar həqiqətən də zaman səddini aşaraq tarixləşən qan yaddaşımıza çevriləcək. Biz yaralılarımızla söhbətlərimizdə həm zəruri qeydlər apardıq, həm də onların dediklərini diktofonun yaddaşına köçürdük. Daxili Qoşunların Vətən müharibəsində keçdiyi döyüş yoluna dair tədqiqatlarda, şəhidlərimiz barədə yazılacaq məqalələrdə bu vacib və məzmunlu informasiyalara istinad olunacaq.

Yaralı hərbi qulluqçularımızın arasında zədələnmə dərəcəsi, səhhəti ağır olanlar var, buna baxmayaraq, heç biri bu halına görə ruhdan düşməyib, bədbinləşməyib. "Vətən üçün canımız da fəda olsun!" - deyirlər. Bəziləri bundan sonrakı həyatını əsa, protez, əlil arabası ilə yaşayacaqlar, ancaq xalqımızın şərəfini uca tutaraq, dövlətimizin hərbi qüdrətini göstərərək, şəhidlərimizin, soyqırım qurbanlarımızın qisasını alaraq, doğma torpaqlarımızı erməni silahlı qüvvələrinin işğalından xilas edərək qazi olmaları onlara mənəvi güc verir.

Belə oğulların Vətən və dövlət qarşısında gərəkli missiyası təkcə keçdikləri döyüş yolu ilə bitmir, on-



ların timsalında cəmiyyətə çox dəyərli vətənpərvərlik örnəyi aşılanır, bu hərbçilərin davamçıları da yetişəcək, qürurverici döyüş ənənələri yeni nəsillərə ötürüləcək.

Ünsiyyətdə olduğumuz mayorlar Ələsgər Muxtarov, Elşən Məmmədov, kapitan Vüsal Həsənov, baş gizir Xəyal Məmmədov, gizir Rasim Yaxin, baş çavuşlar Orxan Əhmədov, Elnur Cəfərov, Əzim



Qafarov, Əfqan Zaxmayev, çavuşlar Polad Mədəni, Zeynal Məmmədov, Fikrət Yaqubzadə, Əmrah Beydiyev, Qorxmaz Həsənov, Kamran Puçaxov, İlkin Abuyev, əsgər Kənan Sultanov və adlarını qeyd etmədiyimiz digər yaralı hərbi qulluqçularımızın hərbi zəfərimiz naminə ağır sınaqlardan keçərək göstərdikləri dözüm, mərdlik, hərbi anda sədaqət, silahdaş məsləyinə bağlılıq, mübarizlik əhval-ruhiyyəsi hörmət və ehtirama layiqdir.

Daxili Qoşunların hərbi qospitalının tibb heyəti yaralılarımızın sağalaraq sıralarımıza qayıtması üçün öz zəhmətini əsirgəmir. Yaralı silahdaşlarımıza demək istəyirik ki, yastığınız yüngül olsun, tezliklə şəfa tapasınız, gücünüz-qüvvətiniz heç vaxt tükənməsin, siz Daxili Qoşunların fəxrisiniz!

**Yalçın Abbasov**

4_Layout 1 29.12.2020 12:36 Page 1



# “MÖVSÜM DƏYİŞİKLİYİ VƏ KORONAVİRUS PANDEMİYASI MƏSULİYYƏTİMİZİ DAHA DA ARTIRIB”



Bu gün Daxili Qoşunlarda şəxsi heyətin sağlamlığına ciddi diqqət yetirilir. Müasir tibbi avadanlıqlarla təchiz olunan və peşəkar həkimlərin çalışdığı 67987 saylı hərbi hissənin tibb məntəqəsinin xidməti fəaliyyəti hərbi hissə komandanlığının ciddi nəzarət etdiyi sahələrdəndir. 44 günlük Vətən müharibəsi zamanı qarşıya qoyulmuş tapşırıqların öhdəsindən layiqincə gələn hərbi hissənin şəxsi heyətinin döyüş hazırlığının yüksək olmasında onların sağlamlıq durumunun vacib rol oynadığını tibb xidmətinin rəisi tibb xidməti mayoru Ariz Abdullayev diqqətə çatdırdı. Bu baxımdan şəxsi heyətin sağlamlığının qorunub saxlanılması məqsədilə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir.



Tibb xidmətinin rəisi bildirdi ki, qarşıda duran əsas vəzifələrdən biri şəxsi heyətin sağlamlığının möhkəmləndirilməsidir: “Hər hansı xəstəliyin yayılmaması üçün mütəmadi olaraq profilaktik işlər görülür. Şəxsi heyət hər gün müayinə edilir. Mövsüm dəyişikliyi və koronavirus pandemiyası məsuliyyətimizi daha da artırıb”.

Hərbi hissənin tibb personalı vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır, müəyyən edilmiş tapşırıqları uğurla yerinə yetirir.

Müsahibimiz tibb xidmətinin öz işini gündəlik olaraq hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil etdiyini bildirdi. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb məntəqəsi rəisi tibb xidməti kapitanı Sevinc Cəfərova, feldşer gizir Zülfiyyə Cəlilova, sanitar-təlimatçı, dezinfektor gizir Gültəkin Xamrayeva, baş çavuş Məhəbbət Zeynalova və aptek rəisi-feldşer kiçik gizir Abdulla Babayev nümunəvi xidmətlərilə seçilirlər.

O söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət hər zaman nəzarətdə saxlanılır. Xüsusilə bütün dünyada, eləcə də ölkəmizdə yayılan koronavirus (COVID-19) pandemiyası səbəbindən hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə önləyici tədbirlərə üstünlük verilir.

Mayor A.Abdullayev şəxsi heyətin soyuqdəymədən qorunması üçün tibb xidməti tərəfindən bölmələrdə aparılan profilaktik tədbirlər barədə də məlumat verdi. Belə ki, şəxsi heyətin tam və kalorili qidalanmasının, yeməkdə soğan və sarımsağın, o cümlədən, heksavit vitamininin qəbulunun, kazarmalarda otaqların düzgün ventilyasiya olunmasının, su qablarında daima qaynadılmış su olmasının, hamam tədbirlərinin keçirilməsinin, hərbi qulluqçuların mövsümə uyğun geyim forması daşımalarının ciddi nəzarətdə saxlanıldığını bildirdi.

Bundan əlavə, hər gün növbətçi həkim tərəfindən hərbi hissənin nəzarət-buraxılış məntəqəsində hərbi qulluqçuların temperaturu yoxlanılır, infeksiyaya yoluxmaqdan qorunmaq üçün maskadan və tibbi əlcəklərdən istifadə olunması, gigiyena qaydalarına riayət edilməsi barədə məsləhətlər verilir.

Tibb xidmət rəisi havaların soyuması və virusa yoluxmanın artdığı bir vaxtda ondan qorunmaq üçün geniş məlumat verərək tövsiyələrini də çatdırdı. Qeyd etdi ki, dəyişkən havada viruslar daha da aktivləşir. Belə vaxtlarda çoxlu meyvə-tərəvəz və vitamin qəbul edilməli, xəstə olan insanlar arasında kontakt minimuma endirilməlidir. Evdə və xidmətdə olarkən gigiyenik tədbirlərin daha da gücləndirilməsi və antiseptik məhlullardan istifadə olunması xəstəliyin rastgəlmə tezliyini azalda bilər.

Bir sözlə, şəxsi heyətin sağlamlığının qorunub saxlanılması istiqamətində tibb xidməti tərəfindən bütün zəruri tədbirlər görülməkdədir.

**kapitan Sadıq Rəfiyev**

# RABİTƏ OLMADAN FASİLƏSİZ VƏ ÇEVİK İDARƏETMƏ MÜMKÜN DEYİL

Bu gün xidməti-döyüş tapşırıqlarının uğurla başa çatdırılmasında mühüm rol oynayan vasitələrdən biri etibarlı rabitənin təmin edilməsidir. Üzərinə düşən vəzifələri yerinə yetirən bölmələrlə fasiləsiz rabitəni təşkil etmək rabitəçilərin işidir. Bu sistemin idarə olunmasında peşəkar rabitəçilərimizin əməyi böyükdür.

67987 saylı hərbi hissənin intizamı, nümunəvi xidmətilə seçilən hərbi qulluqçusu əsgər Əli Soltanov 44 günlük Vətən müharibəsi zamanı cəbhənin ön xəttində düşmənə layiqli cavab verən hərbi hissənin bölmələri ilə fasiləsiz və dayanıqlı rabitə əlaqəsinin təmin olunmasının öhdəsindən layiqincə gəlib.

Əsgər Ə.Soltanov 1999-cu il iyulun 27-də Neftçala rayonunun Bankə qəsəbəsində doğulub. Bankə qəsəbəsindəki Səməd Vurğun adına 2 nömrəli tam orta məktəbin 11-ci sinfini 2016-cı ildə bitirərək, Bakı Biznes Universitetinə daxil olub. 2020-ci ilin iyul ayından müddətli həqiqi hərbi xidmətdədir. Hazırda rabitə taqımında xətt nəzarətçisi vəzifəsində xidmət edir. O, daim öz üzərində çalışır, özünə qarşı tələbkardır. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi, əzmkarlığı ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına da köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.

Əsgər Ə.Soltanov rabitə əlaqəsinin təmin edilməsi üzrə qarşıya qoyulmuş tapşırıqları məsuliyyətlə yerinə yetirir, bu sahədə bilik və bacarığını əsirgəmir. Hərbi hissənin rabitə xidmətinin rəisi mayor Şahin Quliyev tərəfindən müsbət xarakterizə olunan əsgərimiz qısa zamanda digər



hərbi qulluqçulara nümunə olmağı bacarıb.

O, hərbi hissə komandirinin əmrinə əsasən ikihəftəlik kurs keçdikdən sonra rabitə qovşağının döyüş postuna xidmətə cəlb olunub. Rabitə taqımından döyüş postuna təyin olunan hərbi qulluqçu davamlı rabitə əlaqəsini təmin edir, xətlərin sazlığını mütəmadi olaraq yoxlayır və alınan məlumatları vaxtında aidiyyəti xidmətlərə çatdırır.

Hərbi qulluqçu verilən tapşırıqların icrasında sayıqlıq göstərir, dərhal onları keyfiyyətlə yerinə yetirməyə çalışır. Asudə vaxtlarını boşa sərf etməyən əsgərimiz bədii ədəbiyyat oxumağı çox sevir.

Hərbçi ləyaqətini hər şeydən üstün tutan əsgər Ə.Soltanovun ən böyük arzusu gələcəkdə ixtisasına uyğun olaraq fəaliyyət göstərməkdir.

Biz də nümunəvi hərbi qulluqçumuza xidmətdə uğurlarının davamlı olmasını diləyirik.

**kapitan Sadıq Rəfiyev**

*Həkim məsləhəti*

# COVID-19 XƏSTƏLƏRİ HƏKİM NƏZARƏTİNDƏ OLMAQLA YANAŞI, HƏM DƏ QİDALARINA FİKİR VERMƏLİDİRLƏR

Hər gün minlərlə ölkə vətəndaşı yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxur və onların sayındakı artım səviyyəsi ciddi narahatlıq doğurur. İnfeksiyaya yoluxanlar tez bir zamanda xilas olmaq üçün, ilk növbədə, qidalanmaya diqqət yetirməklə immunitetini gücləndirməyin qayğısına qalmalıdır. Təcrübə göstərir ki, COVID-19 xəstələri həkim nəzarətində olmaqla yanaşı, həm də qidalarına fikir verməlidirlər.



**AZƏRTAC** xəbər verir ki, həkim-dietoloq Ləman Süleymanovanın fikrincə, koronavirusa yoluxanların gündəlik qida rasionuna bitki mənşəli yağların əlavə olunması zəruridir: “Lakin kətan, zeytun və kərə yağı da daxil olmaqla, yeməklərin tərkibində müxtəlif növ yağların miqdarına xüsusi diqqət yetirmək lazımdır. Bundan başqa, hüceyrələri yeniləyən, bağırsaq iltihabını aradan qaldıran, xolesterini azaldan avakado belə vaxtda ən qiymətli meyvələrdən biri hesab olunur. Un məmulatları, o cümlədən müxtəlif növ şirniyyatlarla qidalanmaq koronavirusdan sağalma prosesini ləngidir. Orqanizmi zəiflədən həmin şirin məhsullardan, xəmir xörəklərindən və digər oxşar qidalardan tamamilə imtina edilməli, daha faydalı qidalara üstünlük verilməlidir. Əks halda, xəstəlik daha uzun müddət davam edə bilər”.

Onun dediyinə görə, koronavirusa yoluxanların masasında toyuq, balıq və krevetlər, müxtəlif növ dənli bitkilər, tərəvəz salatları, göyərti və C vitamini ilə zəngin olan meyvə əskik olmamalıdır. Narıngi, portağal, kök və kividən istifadə etmək də faydalıdır. Tərkibində bol vitaminlər və zülallar olan həmin qidalar xəstəliyə qalib gəlməyə kömək edir.

# NARKOMANİYA - GƏLƏCƏYİMİZİ MƏHVƏ APARAN “AĞ ÖLÜM”

Müasir dövrümüzdə hər birimizi düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Dünya ictimaiyyətinin səylərinə baxmayaraq, hələ də narkomaniya bəlası ilə mübarizə aparmaq üçün səmərəli yollar aşkar etmək və narkomanların sayını azaltmaq mümkün olmayıb.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, külli miqdarda pul vəsaiti tələb edən bir prosesdir. Bu problemin ictimai təhlükəli olması isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və günü-gündən artır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.



Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində ölkəmizdə də məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı” təsdiq edilib.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının daxili işlər naziri tərəfindən təsdiq edilmiş 16.08.2019-cu il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların Tibb xidmətinin həkim hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi profilaktiki işlər görülür.

Gələcəyimizi məhvə aparan və “ağ ölüm” adlandırılan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin, bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Gürcüstan 2021-ci ildə “Javelin” raket kompleksləri alacaq

Gürcüstan 2021-ci ildə ABŞ-dan “Javelin” tank əleyhinə raket komplekslərinin növbəti partiyasını almağı planlaşdırır.



“Azeri Defence”in məlumatına görə, bunu Gürcüstanın Müdafiə naziri İrakli Qaribaşvili parlamentdə çıxışı zamanı deyib.

Müdafiə naziri bildirib ki, Gürcüstan Silahlı Qüvvələrinin inventarında yer alan “Javelin” komplekslərinin tədarükü növbəti illərdə də davam edəcək.

Qeyd edək ki, 2017-ci il noyabrın 17-də ABŞ Dövlət Departamenti Gürcüstana FGM-148 “Javelin” tank əleyhinə raket komplekslərinin satışına icazə verib. Müqaviləyə əsasən, ABŞ-dan Gürcüstan ordusuna 75 milyon dollar dəyərində 410 ədəd “Javelin” raketi, 72 ədəd buraxıcı qurğu, habelə ehtiyat hissələr, 70 simulyatorun çatdırılması planlaşdırılırdı.

Müqavilə çərçivəsində 2018-ci ildə Gürcüstan ABŞ-dan “Javelin” daşına bilən tank əleyhinə raket komplekslərinin ilk partiyasını alıb.

“Javelin” raket kompleksinin çəkisi 22.3 kq, uzunluğu 1.1 metr, çapı 127 mm, atış məsafəsi 2500-4750 metr təşkil edir. 8.4 kq ağırlığında tandem döyüş başlığına malik raket 600-800 mm qalınlığında zirehi dəlməyi bacarır.

### Türkiyənin ilk P-72 dəniz patrul təyyarəsi Hərbi Dəniz Qüvvələrinə təhvil verilib

Bu barədə “Azeri Defence” Türkiyə Milli Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən məlumat verib.

Müdafiə Sənayesi Komitəsi (SSB) tərəfindən həyata keçirilən “Meltem-3” layihəsi çərçivəsində istehsal edilən P-72 dəniz patrul təyyarəsi təşkil edilən mərasimdə Türkiyə Hərbi Dəniz Qüvvələrinin silahlanmasına qəbul edilib.



“Meltem” layihəsi çərçivəsində tədarüklərin tamamlanması ilə Türkiyənin dəniz patrul təyyarələrinin sayı 12-yə çatacaq. “Meltem-3” layihəsi çərçivəsində istehsal edilən P-72 təyyarələrinin Hərbi Dəniz Qüvvələrinin dənizdəki gücünü daha da artıracağı bildirilib.

Məlumatda o da qeyd olunub ki, ilk dəniz patrul təyyarəsinin təhvil verilməsindən sonra, 2021-ci ildə Hərbi Dəniz Qüvvələri Komandanlığına əlavə 2 ədəd dəniz patrul təyyarəsi və 1 ədəd dəniz çoxməqsədli hərbi təyyarəsinin çatdırılması planlaşdırılır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik-leytenant Almas Ağamalıyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası qoşunların sabiq hərbi qulluqçusu, **polkovnik Əlizadə Babayevin** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin şəxsi heyəti kapitan Rəşadət Nəcəfova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin şəxsi heyəti MAXE əsgər Rüfət Səlimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q.Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000